## Dövlət Statistika Komitəsi tərəfindən Qlobal təşəbbüslər və beynəlxalq reytinq agentlikləri üzrə istifadə olunan statistik göstəricilər təhlil edilmişdir

“2013-2017-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafı Dövlət Proqramı”nda və icrası 2014-cü ildə nəzərdə tutulmuş tədbirlər planının 6.3.9-cu “Qlobal təşəbbüslər və beynəlxalq reytinq agentlikləri üzrə istifadə olunan statistik göstəricilərin təhlili, uyğun rəsmi statistik məlumatların Komitənin internet səhifəsində yerləşdirilməsi” bölməsinin icrası Məlumatların yayılması şöbəsinə tapşırılmışdır.

Tapşırığın icrası ilə əlaqədar il ərzində şöbə tərəfindən mütəmadi olaraq bir sıra beynəlxalq agentliklərin (Standart and Poor’s, Fitch Ratings, Moody’s, Morning star) saytlarına daxil olaraq Azərbaycan Respublikasının statistik göstəricilər üzrə hansı pillədə qərarlaşması nəzərdən keçirilmişdir. Respublikamız “makroiqtisadi vəziyyət” göstəricisi üzrə dünyada 8-ci, “əmək bazarının səmərəliliyi” göstəricisi üzrə isə 30-cu yerə layiq görülmüşdür. Son bir il ərzində ölkəmiz “texnoloji səviyyə” göstəricisi üzrə 11 pillə, “makroiqtisadi sabitlik” və “maliyyə bazarının inkişafı” göstəriciləri üzrə isə 10 pillə irəliləmişdir. Ölkəmiz “inflyasiyanın illik səviyyəsi” üzrə 1-ci, “ümumi milli yığımın ÜDM-ə nisbəti” üzrə 10-cu və “qabaqcıl texnoloji məhsulların dövlət satınalması” üzrə 14-cü yerdə qərarlaşmışdır. Belə ki, son 9 ildə ölkəmiz “Qlobal rəqabət qabiliyyəti indeksi” hesabatları üzrə 30 pillə - 2005-ci ildə 117 iqtisadiyyat arasında 69-cu yerdən 2013-cü ildə 39-cu yerədək irəliləmişdir. Dünya İqtisadi Forumunun hesabatında Qlobal rəqabətlilik indeksinə görə Azərbaycan 148 ölkə arasında 39-cu pillədə qərarlaşmışdır. Bu göstərici iqtisadiyyatın 12 sahəsini əhatə etməklə makroiqtisadi inkişafın əsas istiqamətlərini xarakterizə etmişdir. Makroiqtisadi stabillik göstəricisinə görə Azərbaycan 8-ci, qlobal rəqabətlilik göstəricisinə görə isə respublikamız MDB ölkələri arasında 1-ci yeri tutmuşdur